# Uşaq İncəsənət Festivalı



**Şəhid və qazi övladlarının da qatıldığı tədbirdə iştirakçılar Heydər Əliyevin abidəsini ziyarət etmiş, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini birdəqiqəlik sükutla anmışlar.**

Heydər Əliyev Parkında keçirilən tədbirdə incəsənət xadimləri ilə birlikdə uşaqlar üçün master-klass təşkil edilmiş, bir-birindən maraqlı və rəngarəng rəsm əsərləri, kreativ əl işlərindən ibarət sərgi, teatr tamaşaları, müxtəlif rəqslər, bədii qiraət, müasir rəqslər təqdim olunmuşdur.

Festivalda al-əlvan geyinmiş uşaqlar xüsusi hazırlanmış səbətlərdə çiçək paylayaraq iştirakçılara sevinc bəxş etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 27 may (№109).- S.16.